ISSN 2313-5204

# TÜRKOLOGİYA

BAKI - 2024
1

*Azərbaycan Respublikası Ədliyyə Nazirliyi*
*Mətbu nəşrlərin reyestrinə daxil edilmişdir*
*(Reyestr № 3378)*

# TÜRKOLOGİYA

- ***Beynəlxalq elmi jurnal***
- ***Международный научный журнал***
- ***International scientific journal***

- *1970-ci ildən nəşr olunur*
- *Издаётся с 1970 года*
- *Published since 1970*

- *İldə 2 dəfə çıxır*
- *Выходит 2 раза в году*
- *Published semi-annually*

***№ 1***

BAKI – 2024

# İÇİNDƏKİLƏR

*Nizami Cəfərov* (Azərbaycan). Türkün cəmiyyəti, hürriyəti... Və cümhuriyyəti............... 11

## DİVANÜ LÜĞAT-İT-TÜRK – 950

*İsa Həbibbəyli* (Azərbaycan). Mahmud Kaşğarinin "Divanü lüğat-it-türk" əsəri Azərbaycanda........................................................................................................ 17

*Nadir Məmmədli* (Azərbaycan). Mahmud Kaşğarinin kimliyi və "Divanü lüğat-it-türk"ün yazıldığı dövr........................................................................................................ 23

*Möhsün Nağısoylu* (Azərbaycan). "Divanü lüğat-it-türk"də və "Kitabi-Dədə Qorqud"un Günbəd əlyazmasında işlənmiş bəzi sözlər haqqında........................................................ 35

*Əbülfəz Quliyev* (Azərbaycan). "Divanü lüğat-it-türk" abidəsindəki antroponimlərin leksik-semantik xüsusiyyətləri........................................................................................ 42

*Tuğçe Nur Kesin* (Türkiyə). "Divanü lüğat-it-türk"də insanın zahiri görünüşü................. 54

*Qüdsiyyə Qəmbərova* (Azərbaycan). Yamsılamaların diaxronik-dialektoloji aspektləri (M.Kaşğarinin "Divanü lüğat-it-türk" əsəri əsasında)...................................................... 62

## KLASSİK İRS

*İsmixan Osmanlı* (Azərbaycan). Əbülqazi Bahadır Xan və "Şəcəreyi-Türk" ("Türklərin soy kitabı") əsəri........................................................................................................ 71

*Davronbek Oripov* (Özbəkistan). "Kitabi Dədə Qorqud" dastanı: genezis, inkişaf və Özbəkistandakı nəşrləri........................................................................................ 92

## DİL ƏLAQƏLƏRİ

*Minaxanım Nuriyeva Təkləli* (Azərbaycan). Şərqi slavyan dillərindəki bitki adlarında türk elementlərinin yeri və onların işlənmə xüsusiyyətləri............................................ 100

## DİALEKTOLOGİYA

*Qəzənfər Paşayev* (Azərbaycan). İraq türkman ləhcəsinin tədqiqində Əta Tərzibaşı mərhələsi........................................................................................................ 110

*Atilla Jorma* (Makedonya), *İrem Kılıç* (Türkiyə). Oğur – oğuz dialektologiyası problemləri........................................................................................................ 119

## RESENZİYA

*İsmayıl Kazımov* (Azərbaycan), *Qətibə Vaqifqızı Quliyeva* (Azərbaycan). *Оғулбай Гайлыева.* Ğärezsizlik dəyiri türkiy xalıklar lirikasında formalık izlenisler xəm olardınŋ tipologiyası ("Müstəqillik dövrü türk xalqlarının lirikasının forma və tipologiyası")........................................................................................................ 133

*Elbrus Əzizov* (Azərbaycan). *Əhmədəli Əliyev.* Azərbaycan dilinin Meğri şivələri.......... 135

# RESENZİYALAR
# РЕЦЕНЗИИ
# REVIEWS

## *ОГУЛБАЙ ГАЙЛЫЕВА.* ĞƏREZSİZLİK DƏYİRİ TÜRKİY XALIKLAR LİRİKASINDA FORMALIK İZLENİSLER XƏM OLARDINŊ TİPOLOQİYASI
***(özbek, karakalpak, türkmen lirikası mısalında)***

*Nökis, Bilim, 2018, 214 s.*




Xalqın yaddaşından süzülüb gələn, ayrı-ayrı dövrlərdə yazılan müxtəlif məzmunlu bədii nümunələrin diaxron və sinxron şəkildə araşdırılması həm ədəbiyyatşünaslıq, həm də dilçilik baxımından əhəmiyyət kəsb edir. Eyni etnomədəni coğrafiyanı və ictimai-siyasi mühiti bölüşən, dövrlər dəyişsə də, mədəni-ədəbi, ictimai birliyi pozulmayan türk xalqlarının ədəbi sferadakı əlaqələri yeniləşmə fonunda yaxınlığını, ortaqlığını itirməmişdir. Ədəbi-bədii müstəvidə mövcud olan bu əlaqələrin, inteqral xüsusiyyətlərin modern ədəbiyyatşünaslıq tendensiyaları əsasında tədqiqi elmi baxımdan aktuallıq kəsb edir. Bu mənada Berdak Qaraqalpaq Universitetinin filologiya fakültəsinin müəllimi, filologiya elmləri doktoru Oqulbay Qaylıyevanın müəllifi olduğu ***"Müstəqillik dövrü türk xalqlarının lirikasının forma və tipologiyası" (Ğərezsizlik dəyiri türkiy xalıklar lirikasında formalık izlenisler xəm olardınŋ tipoloqiyası (özbek, karakalpak, türkmen lirikası mısalında)"*** (Nökis, "Bilim", 2018, 216 s.) adlı monoqrafiyası mənşəcə qohum olan türk xalqlarının lirik düşüncəsinin məhsulu olan şeirlərin forma və tipoloji xarakteristikasını verən önəmli bir mənbədir. Monoqrafiyada XX əsr özbək, qaraqalpaq, türkmən lirikası tarixi kontekstdə və Şərq-Qərb ədəbi-bədii prosesləri əsasında araşdırılmışdır.

Monoqrafiya "Giriş" və dörd hissədən ibarətdir. "Giriş" hissədə müasir dünya ədəbiyyatındakı ədəbi cərəyanlar, janrlar sistemi və prinsipləri, etnomədəni areallar, poetika haqqında əhatəli məlumat verilir, qohum türk xalqlarının ədəbi-bədii söz xəzinəsinin tarixi araşdırılır, özbək ədəbiyyatşünaslarından R.Orzibekovun, U.Tuyçiyevin, X.Xamilovun, K.Kurambayevin, N.Afakovanın, U.Normatovun, M.Yuldaşevanın, K.Yulçiyevin; qaraqalpaq ədəbiyyatşünaslarından K.Jərimbetovun, K.Orazimbetovun; türkmən ədəbiyyatşünaslarından A.Bekmıradovun, A.Mamedovun elmi-nəzəri fikirləriyer almışdır.

Müəllif türk lirikasının forma və tipologiyasını şərh etmək üçün özbək şairlərindən Çolpan, Erkin Voxidov, Rauf Parfi, Şavkat Raxmon, Tursun Ali, qaraqalpaq şairlərindən İ.Yusupov, K.Karımov, Ə.Ötepberqenov, Ş.Ayapov, X.Dauletnazarov, B.Qenjemuratov, türkmən şairlərindən A.Mammedov, A.Atabaev, N.Meredov, L.Maksimova kimi söz sənətkarlarının qəzet və jurnallarda, toplularda çap olunan şeirləri

seçilmiş, bu nümunələr lirik forma, məzmun və tipoloji istiqamətdə müqayisə edilmişdir.

***"XX əsr özbək, qaraqalpaq və türkmən lirikasında forma xüsusiyyətlərinin tədqiqi tarixi"*** adlanan birinci hissədə özbək, qaraqalpaq və türkmən lirikasında şərq-qərb ədəbi-bədii ənənələrinin təzahürü və türk şeir ənənələri işığında izlənilən formalar şərh olunur. Türk xalqlarının mənəviyyatının və ədəbi-bədii düşüncəsinin parlaq, ifadəli və obrazlı təzahürü olan lirika tarixən həmin xalqların milli özünüdərketməsinin hərəkətverici qüvvələrindən olmuş, mənəvi-əxlaqi dəyərlərini yaşatma vasitəsi kimi hissi-emosional duyğularını, mübarizliyini, kədər və sevincini nümayiş etdirmişdir.

Hər üç türk xalqının bədii ədəbiyyatında qədim türk şeir ənənələri, orta əsrlər klassik poetikasının ən kamil formaları, eləcə də bu iki təməl əsasında təşəkkül edən müasir şeir şəkilləri özünəməxsus cizgilərlə əks olunur. *"Bu mövcud ənənələri dərindən dərk etmədən poetik yeniliyə nail olmaq mümkün deyil"* deyən müəllif lirikada Şərq klassik ədəbiyyatının poetik formalarının məzmun baxımından yeniləndiyini qeyd edir və bu keyfiyyətləri nəzərə alaraq tədqiqat obyekti olaraq seçdiyi türk xalqlarının şeir xəzinəsini lirik növün müxtəlif janrlarının estetik prinsipləri mövqeyindən öyrənməyə çalışır.

Monoqrafiyanın ikinci hissəsi ***"Müstəqillik dövrü özbək, qaraqalpaq, türkmən lirikasında aralıq formaların özünəməxsus xüsusiyyətləri və tipologiyası"*** adlanır. Bu hissədə Oqulbay Qaylıyeva özbək, qaraqalpaq, türkmən lirikasında şeir janrları və onların tipoloji-texniki cəhətlərini, məzmun və ideya istiqamətlərini təhlil edərək lirik modellərin konseptual xüsusiyyətlərini, onların informativ struktur və emosional durumunu üslubyaradıcı faktor kimi araşdırır.

Monoqrafiyanın üçüncü hissəsi ***"Müstəqillik dövrü özbək, qaraqalpaq, türkmən lirikasında kiçik formaların poetikası"*** adlı üçüncü hissədə kiçik lirik formaların, eləcə də qədim türk şeir şəkilləri olan koşukların, manilərin poetik məzmunu, kompozisiya strukturu təhlil olunur, şeirin bədii prinsipləri, zəngin ideya-motiv xüsusiyyətləri işıqlandırılır.

Monoqrafiyanın dördüncü hisssəsi ***"Müstəqillik dövrü özbək qaraqalpaq türkmən lirikasında müasir üsulların təzahürləri"*** adlı hissədə müəllif lirik əsərlərin tematik tipologiyasını müqayisəli-tipoloji yanaşmada təsnif edir. XX əsr türk poeziyasında (özbək, qaraqalpaq və türkmən ədəbiyyatında) çoxçalarlı emosional ton və həyəcan, lirik manera, bədii simvol, lirik obraz, lirikada konstruktiv əlamətlər, insan həyatının çoxtərəfli tərənnümü, sözlərin bədii informasiya strukturu, ritmik elementlər, vurğu və pauzaya görə nitqin fərqli elementləri araşdırılır.

*"Bədii istiqamət mürəkkəb bir prosesdir, qələm düşüncə və hissləri ifadə edir, həqiqət müxtəlif üsul və formalarda bəyan olunur"* deyərkən Oqulbay Qaylıyeva poetik əsərlərdə mənəvi-psixoloji ruhun aparıcı olduğunu nəzərdə tutur və şərq poetikası əsasında lirik janrlar üçün müəyyən ədəbi qaydaların mövcud olduğunu qeyd edir.

Monoqrafiyada müəllifin zəngin ədəbi-bədii material əsasında tədqiqat apardığı, mövcud elmi-nəzəri ədəbiyyatı dərindən mənimsəməsi əks olunmuşdur. Oqulbay Qaylıyevanın özbək, qaraqalpaq və türkmən ədəbiyyatında lirik janrların forma və tipologiyası əsasında aparılan bu araşdırma uzun illərin axtarışlarını əhatə edir və əldə olunan nəticələr dəqiq müşahidələrin, müqayisəli təhlilə əsaslanan elmi təfəkkürün ən yüksək və əhatəli təzahürüdür.

*İsmayıl Kazımov**
*Qətibə Vaqifqızı Quliyeva***

---

* Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Nəsimi adına Dilçilik İnstitutu Türk dilləri şöbəsinin müdiri, prof. E-mail:prof.ismayil.kazimov@gmail.com
** Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Nəsimi adına Dilçilik İnstitutu Türk dilləri şöbəsi, fil.ü.f.d., dos. E-mail:gatibevagifkizi@yahoo.com